**Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyinin fəaliyyəti ilə bağlı bəzi məsələlər haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. *"Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyinin* sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası" təsdiq edilsin (əlavə olunur).[i]

2. Bu Fərmanın 1-ci hissəsi ilə təsdiq edilmiş *"Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyinin* sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası" bu Fərmanın 9.1-ci bəndində nəzərdə tutulan "Güzəştli mənzil" sisteminin əsasnaməsi ilə eyni tarixdə qüvvəyə minir.

3. *Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyinin (bundan sonra – Agentlik)* sərəncamında olan mənzillərin güzəştlə əldə edilməsi məqsədi ilə "Elektron hökumət" portalında "Güzəştli mənzil" sistemi yaradılsın və 2017-ci il mayın 1-dən tətbiq edilsin.[ii]

*4. "Güzəştli mənzil" sistemi bu Fərmanın 1-ci hissəsi ilə təsdiq edilən Qaydaya uyğun olaraq mənzillərin güzəştlə əldə edilməsi ilə bağlı aşağıdakıları təmin etməlidir:*[iii]

*4.1. mənzillərin güzəştlə əldə edilməsi üçün tələb olunan sənədlərin siyahısının və şərtlər barədə məlumatın mövcudluğunu;*

*4.2. mənzilləri güzəştlə əldə etmək istəyən şəxsin elektron müraciətinin real vaxt rejimində qeydiyyata alınmasını;*

*4.3. mənzillərin güzəştlə əldə edilməsi üçün tələb olunan və bu Fərmanın 6.2.1–6.2.4-cü yarımbəndlərində nəzərdə tutulan məlumatların alınmasını;*

*4.4. mənzilləri güzəştlə əldə etmək məqsədi ilə müraciət etmiş şəxslərin Cəmiyyət tərəfindən vahid və ictimaiyyət üçün açıq olan qeydiyyatının aparılmasını;*

*4.5. mənzili güzəştlə əldə etmək məqsədi ilə müraciət etmiş şəxs üçün elektron kabinetin yaradılmasını.*

*5. "Güzəştli mənzil" sisteminin təşkilini və inkişafını Agentlik, fəaliyyətinin təmin olunmasını isə "MİDA" Məhdud Məsuliyyətli Cəmiyyəti həyata keçirir.*[iv]

6. Azərbaycan Respublikasının *Nəqliyyat, Rabitə* və Yüksək Texnologiyalar Nazirliyi:[v]

6.1. "Güzəştli mənzil" sisteminin "Elektron hökumət" portalına inteqrasiyasını və müvafiq dövlət qurumlarının informasiya sistemlərindən məlumatların bu sistemə ötürülməsi imkanını təmin etsin;

6.2. *Agentliyin* sərəncamında olan mənzillərin güzəştlə əldə edilməsi üçün tələb olunan, aidiyyəti dövlət qurumlarının informasiya sistemlərindəki aşağıdakı məlumatları ~~Cəmiyyətin~~ "Güzəştli mənzil" sistemi vasitəsilə almasını təmin etsin: [vi]

6.2.1. mənzili güzəştlə əldə etmək istəyənin şəxsiyyətini təsdiq edən sənəd üzrə məlumatları;

6.2.2. mənzili güzəştlə əldə etmək istəyən şəxsin nikah (və ya nikahın pozulması) haqqında şəhadətnaməsi üzrə məlumatları;

6.2.3. mənzili güzəştlə əldə etmək istəyən şəxsin (birgə borcalanın) iş yerini təsdiq edən məlumatları;

6.2.4. mənzili güzəştlə əldə etmək istəyən şəxsin ailə tərkibi barədə məlumatları;

6.3. "Güzəştli mənzil" sisteminin təşkilində və fəaliyyətinin təmin olunmasında Agentliyə və Cəmiyyətə kömək göstərsin.

7. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə, Müdafiə Nazirliyinə, Ədliyyə Nazirliyinə, Gənclər və İdman Nazirliyinə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə, Əmlak Məsələləri Dövlət Komitəsinə və Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsə tapşırılsın ki, "Güzəştli mənzil" sisteminin fəaliyyətinin təşkili üçün Agentliyə kömək etsinlər.

*8. Müəyyən edilsin ki:* [vii]

*8.1. Bu Fərmanın 1-ci hissəsi ilə təsdiq olunmuş Qaydanın tələbləri həmin Qaydada müəyyən edilmiş şərtlərlə güzəştli qiymətlə satışa çıxarılan, "MİDA" Məhdud Məsuliyyətli Cəmiyyətinin, habelə vətəndaşların yaşayış sahələrinə ehtiyacının güzəştli qaydada ödənilməsi məqsədi ilə Agentliklə və ya "MİDA" Məhdud Məsuliyyətli Cəmiyyəti ilə bağlanmış müqavilə əsasında çoxmənzilli binalar inşa edərək mənzillərini vətəndaşlara həmin Qaydada müəyyən edilmiş şərtlərlə güzəştli qiymətlə satmaq öhdəliyi götürmüş investorun sərəncamında olan mənzillərə də şamil edilir;*

*8.2. bu Fərmanın 1-ci hissəsi ilə təsdiq olunmuş Qaydaya əsasən mənzillərin əvəzləşdirilməsi halları istisna olmaqla, Agentliyin, "MİDA" Məhdud Məsuliyyətli Cəmiyyətinin, habelə vətəndaşların yaşayış sahələrinə ehtiyacının ödənilməsi məqsədi ilə Agentliklə və ya Cəmiyyətlə bağlanmış müqavilə əsasında çoxmənzilli binalar inşa edərək, üzərində mülkiyyət hüququ dövlət qeydiyyatına, o cümlədən qabaqcadan qeydiyyata alınmış mənzilləri vətəndaşlara bu Fərmanın 1-ci hissəsi ilə təsdiq olunmuş Qaydada müəyyən edilmiş şərtlərlə satmaq öhdəliyi götürmüş investorun sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsinə o şərtlə yol verilir ki, müvafiq müqavilədə mənzilin üç il müddətində özgəninkiləşdirilməsinə, həmin mənzilin kredit hesabına əldə edilməsi üçün ipoteka ilə yüklü edilməsi halları istisna olmaqla, digər öhdəliklərin təminatı məqsədi ilə ipoteka ilə yüklü edilməsinə, habelə üç il müddətində mənzilin icarəyə və ya kirayəyə verilməsinə məhdudiyyət nəzərdə tutulmuş olsun.*

9. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

9.1. "Güzəştli mənzil" sisteminin əsasnaməsinin layihəsini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

9.2. bu Fərmanın 8-ci hissəsində nəzərdə tutulmuş məhdudiyyətin daşınmaz əmlakın dövlət reyestrində qeydiyyatının dövlət büdcəsinin vəsaiti hesabına aparılması üçün tədbirlər görsün;

9.3. "Azərbaycan İpoteka Fondu" Açıq Səhmdar Cəmiyyətinin vəsaitinin Cəmiyyətin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsinə yönəldilən hissəsini hər maliyyə ilinin əvvəlində Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla müəyyən etsin;

9.4. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

9.5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

9.6. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

10. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

11. "Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyinin yaradılması və fəaliyyətinin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 11 aprel tarixli 858 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 663) 10.3-cü bəndi aşağıdakı redaksiyada verilsin:

"10.3. "MİDA" Məhdud Məsuliyyətli Cəmiyyətinin sərəncamına verilən torpaq sahələrində inşa ediləcək tikinti obyektlərinin tikinti sahəsinədək mühəndis-kommunikasiya təminatı sisteminin və xətlərinin (elektrik enerjisi, su, kanalizasiya, qaz, rabitə və s.), həmçinin yolların Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyinin müraciəti əsasında dövlət büdcəsinin vəsaiti hesabına çəkilməsi üçün, habelə tikinti sənədlərinə əsasən tələb olunduğu hallarda bu torpaq sahələrində mövcud mühəndis-kommunikasiya təminatı sisteminin və xətlərinin köçürülməsi, yol-nəqliyyat infrastrukturunun yaradılması, ərazinin abadlaşdırılması, layihədə nəzərdə tutulduğu halda sosial obyektlərin (uşaq bağçası, məktəb və s.) tikinti-quraşdırma işləri üzrə xərclərin onun müraciəti əsasında dövlət büdcəsinin vəsaiti hesabına ödənilməsi üçün tədbirlər görsün;".

**İlham ƏLİYEV,**

**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 16 noyabr 2016-cı il

№ 1113

Azərbaycan Respublikası Prezidentinin
2016-cı il 16 noyabr tarixli 1113 nömrəli Fərmanı ilə
TƏSDİQ EDİLMİŞDİR

**_Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyinin_ sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi**[viii]

# Q A Y D A S I

## 1. Ümumi müddəalar

1.1. Bu Qayda "Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyinin yaradılması və fəaliyyətinin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 11 aprel tarixli 858 nömrəli Fərmanının 12.2-ci bəndinin icrası ilə əlaqədar hazırlanmışdır və *Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyinin (bundan sonra – Agentlik), "MİDA" Məhdud Məsuliyyətli Cəmiyyətinin, habelə vətəndaşların yaşayış sahələrinə ehtiyacının ödənilməsi məqsədi ilə Agentliklə və ya Cəmiyyətlə bağlanmış müqavilə əsasında çoxmənzilli binalar inşa edərək, üzərində mülkiyyət hüququ dövlət qeydiyyatına, o cümlədən qabaqcadan qeydiyyata alınmış mənzilləri vətəndaşlara bu Fərmanın 1-ci hissəsi ilə təsdiq olunmuş Qaydada müəyyən edilmiş şərtlərlə satmaq öhdəliyi götürmüş investorun* sərəncamında olan mənzilləri Azərbaycan Respublikası vətəndaşlarının güzəştlə əldə etməsi şərtlərini və mexanizmini müəyyən edir. [ix]

1.2. Bu Qaydada istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

*1.2.1. cəmiyyət – "MİDA" Məhdud Məsuliyyətli Cəmiyyətinin, habelə vətəndaşların yaşayış sahələrinə ehtiyacının ödənilməsi məqsədi ilə Agentliklə və ya Cəmiyyətlə bağlanmış müqavilə əsasında çoxmənzilli binalar inşa edərək, üzərində mülkiyyət hüququ dövlət qeydiyyatına, o cümlədən qabaqcadan qeydiyyata alınmış mənzilləri vətəndaşlara bu Fərmanın 1-ci hissəsi ilə təsdiq olunmuş Qaydada müəyyən edilmiş şərtlərlə satmaq öhdəliyi götürmüş investorlar;*[x]

1.2.2. agent bank – "Azərbaycan İpoteka Fondu" Açıq Səhmdar Cəmiyyətinin (bundan sonra – "AİF" ASC) müvəkkil banklarının siyahısına daxil olan və ~~cəmiyyətlə~~ bu Qaydanın 8.1-ci bəndində nəzərdə tutulan müqaviləni bağlamış bank; [xi]

*1.2.3. bina – mənzilləri bu Qaydaya uyğun olaraq güzəştlə əldə edilən çoxmənzilli bina;*[xii]

1.2.4. borcalan – güzəştlə mənzil almaq üçün agent bankdan ipoteka krediti almış Azərbaycan Respublikası vətəndaşı;

1.2.5. ərizəçi – güzəştlə mənzil əldə etmək məqsədi ilə bu Qaydanın 5-ci hissəsinə əsasən "Güzəştli mənzil" sistemində qeydiyyata alınaraq elektron kabineti yaradılmış və güzəştli şərtlərlə əldə edilməli mənzili seçmiş Azərbaycan Respublikası vətəndaşı;

1.2.6. mənzil – binalarda olan yaşayış sahəsi (sahələri);

1.2.7. elan – bu Qaydanın 4-cü hissəsinə əsasən mənzillərin satışa çıxarılması barədə elan;

1.2.8. tikinti mərhələsi – Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsi ilə müəyyən edilmiş qaydada binanın tikintisinə icazənin verilməsi ilə başlanan və istismarına icazənin verilməsi ilə başa çatan dövr;

1.2.9. ipoteka krediti – "AİF" ASC-nin vəsaiti hesabına verilən güzəştli ipoteka krediti;

1.2.10. orta bazar qiyməti – "Azərbaycan İpoteka Fondu" Açıq Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 27 oktyabr tarixli 661 nömrəli Fərmanının 4.7-ci bəndinə əsasən müəyyən edilən orta bazar qiyməti.

## 2. Mənzilləri güzəştlə əldə etmək hüququ olan şəxslər

2.1. Mənzilləri güzəştlə əldə etmək hüququ Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 22 iyun tarixli 940 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan İpoteka Fondu" Açıq Səhmdar Cəmiyyətinin vəsaiti hesabına ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin verilməsi Qaydası"nın (bundan sonra – ipoteka kreditinin verilməsi Qaydası) 3.2-ci bəndində nəzərdə tutulmuş şəxslərə məxsusdur.

2.2. Mənzilləri güzəştlə əldə etmək hüququ olan ailə və ya şəxs bu hüquqdan yalnız bir dəfə istifadə edə bilər.

2.3. Bu Qaydanın 2.2-ci bəndinin müddəaları Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyinin (bundan sonra – Agentlik) razılığı ilə mənzillərin əvəzləşdirilməsi hallarına tətbiq edilmir.

2.4. Mənzillərin əvəzləşdirilməsi onun sahibinin *Agentliyə, habelə mənzili əldə etdiyi cəmiyyətə* əsaslandırılmış yazılı müraciəti ilə həyata keçirilir və bu məsələyə *Agentlik tərəfindən* növbədənkənar olaraq, "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada baxılır. Mənzillərin əvəzləşdirilməsinə yol verilən halları Agentlik müəyyən edir.[xiii]

## 3. Mənzillərin əldə edilməsinə tətbiq olunan güzəşt

3.1. Bu Qaydaya uyğun olaraq mənzil güzəştli qiymətlə ipoteka krediti hesabına və ya ərizəçinin öz vəsaiti, yaxud kredit təşkilatından cəlb etdiyi kredit hesabına əldə edilir.

3.2. Güzəştli qiyməti (mənzilin satış qiymətini) cəmiyyətin təklifləri əsasında *Agentlik (onun kollegial orqanı)* mənzilin orta bazar qiymətindən aşağı müəyyən edir. [xiv]

3.3. Mənzil tam təmirli və mətbəx mebeli ilə təchiz olunmuş vəziyyətdə təhvil verilir.

3.4. Mənzil ipoteka kreditinin hesabına alındıqda, agent bankın verdiyi kreditin məbləği satış qiymətinin 90 faizini təşkil etməlidir (kreditin məbləğinin 90 faizdən az olması barədə borcalanın rəsmi müraciət etdiyi hallar istisna olmaqla).

## 4. Mənzillər barədə elan

4.1. Bu Qaydaya uyğun olaraq, yalnız layihə üzrə tikinti işlərinin 30 (otuz) və daha çox faizi yerinə yetirilmiş binaların mənzillərinin satışa çıxarılması barədə elan verilə bilər. Mənzillərin satışının başlanması ilə əlaqədar kütləvi informasiya vasitələrində, *Agentliyin* internet saytında, "Elektron hökumət" portalında və "AİF" ASC-nin internet saytında Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 11 aprel tarixli 858 nömrəli Fərmanı ilə təsdiq edilmiş "MİDA" Məhdud Məsuliyyətli Cəmiyyətinin Nizamnaməsi"nin 9.1.4–9.1.6-cı yarımbəndlərində qeyd olunan məlumatları əks etdirən elan yerləşdirilməlidir. [xv]

4.2. Elan satışın başlanması tarixinə ən azı 30 (otuz) gün qalmış verilməlidir.

4.3. Kütləvi informasiya vasitələrində (dövlət qəzetlərində, televiziya kanallarında və s.) verilən elanda aşağıdakı məlumatlar göstərilməlidir:

4.3.1. binanın ünvanı;

4.3.2. binanın tikinti sahəsi və yerləşdiyi (onun tərkib hissələri mülkiyyətçilərinin ümumi paylı mülkiyyətində olacaq) torpaq sahəsinin ölçüsü. Torpaq sahəsində bir neçə binanın tikintisi planlaşdırıldıqda, hər binanın tikinti sahəsi və bütövlükdə binaların yerləşdiyi (onların tərkib hissələri mülkiyyətçilərinin ümumi paylı mülkiyyətində olacaq) torpaq sahəsinin ölçüsü;

4.3.3. binada otaqların sayına görə mənzillərin sayı;

4.3.4. otaqların sayına görə mənzillərin satış qiyməti;

4.3.5. mənzili güzəştlə əldə etmək üçün ərizə verilməsi qaydası;

4.3.6. tikintiyə icazədə müəyyən edilən tikinti-quraşdırma işlərinin başaçatma tarixi;

4.3.7. bina, mənzil və satış şərtləri barədə təfərrüatlı məlumat əldə etmək üçün internet sayt;

4.3.8. binada mənzillərin güzəştlə satışının başlanması tarixi və müddəti;

4.3.9. baş podratçının adı və ünvanı.

4.4. Elektron qaydada verilən elanda bu Qaydanın 4.1-ci və 4.3-cü bəndlərində müəyyən edilmiş məlumatlardan əlavə, aşağıdakılar göstərilməlidir:

4.4.1. tikinti ərazisinin baş planı, tikinti layihəsinin memarlıq-planlaşdırma bölmələri və ya bunlarla tanış olmaq üçün internet sayt;

4.4.2. agent bankın (bankların) adı, baş ofisinin və filiallarının ünvanları.

## 5. Mənzilin güzəştlə əldə edilməsi üçün müraciət

~~*5.1. Bu Qaydanın 2.1-ci bəndində müəyyən edilmiş şəxslər mənzilin güzəştlə əldə edilməsi üçün cəmiyyətə müraciət etməlidirlər.*~~ [xvi]

5.2. Mənzilin güzəştlə əldə edilməsi üçün müraciət *yalnız gücləndirilmiş elektron imza sertifikatı ilə* elektron qaydada "Elektron hökumət" portalında olan "Güzəştli mənzil" elektron sistemi vasitəsilə edilir. [xvii]

5.3. Müraciətdə aşağıdakı məlumatlar göstərilməlidir:

5.3.1. müraciətedənin adı, soyadı, atasının adı;

5.3.2. müraciətedənin şəxsiyyət vəsiqəsinin seriyası, nömrəsi və verildiyi tarix, şəxsiyyət vəsiqəsini vermiş dövlət orqanının adı;

5.3.3. müraciətedənin bu Qaydanın 2.1-ci bəndində müəyyən edilmiş şəxslər kateqoriyasına aid olması barədə məlumat;

5.3.4. müraciətedənin qeydiyyatda olduğu ünvan;

5.3.5. müraciətedənin telefon nömrəsi və elektron poçt ünvanı;

5.3.6. müraciətedənin əldə etmək istədiyi mənzilin otaqlarının sayı;

5.3.7. müraciətedənin mənzili ipoteka kreditindən istifadə etməklə və (və ya) öz vəsaiti hesabına əldə etmək niyyəti barədə məlumat;

5.3.8. *"MİDA" Məhdud Məsuliyyətli Cəmiyyəti* tərəfindən zəruri məlumatların (sənədlərin) alınması üçün dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə sorğu göndərilməsinə müraciətedənin razılığı. [xviii]

5.4. Müraciət edən şəxs elektron qaydada müraciət edə bilmədikdə, müraciəti onun adından etibarnamə almış şəxs göndərə bilər. Belə halda müraciətdə bu barədə qeyd olmalıdır və ona aşağıdakı sənədlər əlavə edilməlidir:

5.4.1. etibar edilmiş şəxsin şəxsiyyətini təsdiq edən sənədin surəti;

5.4.2. etibar edilmiş şəxsə notariat qaydasında və ya qanunvericiliklə müəyyən edilmiş digər qaydada təsdiq edilərək verilmiş etibarnamə.

5.5. Müraciətlər real vaxt rejimində "Güzəştli mənzil" elektron sistemində qeydiyyata alınır və onlara həmin sistem vasitəsilə qeydiyyat sıra nömrəsi verilir. Müraciətə onun qeydiyyata alındığı gündən 5 (beş) iş günü ərzində baxılır. Əlavə araşdırmanın aparılması tələb olunduğu hallarda, müraciət edən şəxsə bu barədə məlumat verilməklə, həmin müddət 10 (on) iş günü artırıla bilər. Müraciət etmiş şəxsin bu Qaydanın 2.1-ci bəndində nəzərdə tutulan kateqoriyaya aid olması müəyyən edildikdə, *"MİDA" Məhdud Məsuliyyətli Cəmiyyəti* həmin şəxsin sistemdə qeydiyyata alınaraq, müraciətin qeydiyyataalınma nömrəsinə uyğun olaraq ona elektron kabinet verilməsi barədə qərar, həmin kateqoriyaya aid olmadığı müəyyən edildikdə isə elektron kabinet verilməsindən imtina barədə əsaslandırılmış qərar qəbul edir. [xix]

5.6. Bu Qaydanın 5.5-ci bəndinə əsasən "Güzəştli mənzil" sistemində qeydiyyata alınmış şəxs, barəsində elan verilmiş mənzili həmin sistemdə seçə bilər.

5.7. Müraciət edən şəxs mənzili ünvan əsasında seçir və seçilmiş mənzili digər şəxslərin seçməsi imkanı elektron sistem vasitəsilə məhdudlaşdırılır. Mənzilin seçilməsi və seçilmiş mənzilə məhdudiyyət qoyulması ilə bağlı müraciətedənin elektron kabinetində sistem vasitəsilə dərhal məlumat yerləşdirilir.

5.8. Bu Qaydanın 4.3.8-ci yarımbəndində müəyyən edilmiş müddət başa çatdıqda mənzillərin seçilməsi dayandırılır və ərizəçinin seçdiyi mənzili onun əldə etməsinin mümkün olub-olmaması məsələsinə baxılır.

5.9. Ərizə təmin edilmədikdə, ərizənin təmin edilməsi barədə qərar ləğv edildikdə, müqavilənin rəsmiləşdirilməsi üçün bu Qaydanın 6.2-ci bəndi ilə müəyyən edilmiş müddətdə ərizəçi gəlmədikdə və ya ərizəçi mənzil almaqdan imtina etdikdə, həmin ərizəçinin qeydiyyatı ləğv edilir. Belə halda mənzilin üzərinə qoyulmuş, bu Qaydanın 5.7-ci bəndində qeyd olunan məhdudiyyət götürülür.

## 6. Ərizələrə baxılma qaydası

6.1. Mənzil seçildikdən sonra ərizəyə baxılmanın nəticələrinə dair ərizəçinin elektron kabinetində sistem vasitəsilə 5 (beş) iş günü ərzində seçilmiş mənzil barədə bildiriş yerləşdirilir, ərizəçinin göstərmiş olduğu digər vasitələrdən biri ilə (elektron poçt ünvanı, mobil telefon nömrəsi, poçt ünvanı) ona məlumat göndərilir.

6.2. Öz vəsaiti hesabına mənzil əldə etmək niyyətində olan ərizəçinin ərizəsinin təmin edilməsi barədə bildiriş onun elektron kabinetində yerləşdirildiyi halda, ərizəçi müvafiq müqavilənin rəsmiləşdirilməsi üçün həmin bildirişdə qeyd olunan tarixdə, göstərilən notariusa müraciət etməlidir. Həmin tarixdə müraciət edə bilmədikdə, ərizəçi elektron sistem vasitəsilə cəmiyyətə məlumat verməlidir. Bu halda müqavilənin rəsmiləşdirilməsi üçün cəmiyyət tərəfindən ərizəçinin elektron kabinetində yeni bildiriş yerləşdirilir. Ərizəçinin elektron kabinetində bu Qaydanın 6.1-ci bəndində qeyd olunan bildiriş yerləşdirildiyi gündən 15 (on beş) iş günü müddətində mənzilin alqı-satqı müqaviləsi bağlanmalıdır.

6.3. Mənzilin seçilməsi ilə yanaşı, onun ipoteka krediti vasitəsilə əldə edilməsi seçildikdə, ərizəçi "Elektron ipoteka" sisteminə yönəldilir və həmin sistemdə avtomatik qeydiyyata alınır. Belə halda seçdiyi mənzil barədə bildiriş bu Qaydanın 6.1-ci bəndinə uyğun olaraq elektron kabinetində yerləşdirildikdən sonra ərizəçi agent banka müraciət etməlidir. Mənzilin ipoteka kreditindən istifadə etməklə əldə edilməsini seçmiş ərizəçinin elektron kabinetində yerləşdirilən bildirişdə agent bankın ipoteka kreditinin verilməsinə razılıq barədə qərarı elektron sistemdə yerləşdirdiyi halda, ərizəçinin və (və ya) həmin bankın tələbinə əsasən alqı-satqı və ipoteka müqaviləsinin rəsmiləşdirilməsi üçün notariatda iştirakın təmin edilməsi barədə cəmiyyətin öhdəliyi əks olunmalıdır.

6.4. Ərizəçi bu Qaydanın 6.3-cü bəndinə uyğun olaraq agent banka müraciət etdikdə, ərizənin qeydiyyat nömrəsini və ipoteka kreditinin verilməsi Qaydası ilə müəyyən edilmiş sənədləri təqdim etməlidir. Belə müraciətə ipoteka kreditinin verilməsi Qaydasına uyğun olaraq baxılır.

6.5. Aşağıdakı hallarda ərizəçinin ərizəsi təmin edilmir və ya ərizənin təmin edilməsi barədə bildiriş ləğv edilir:

6.5.1. ərizəçinin bu Qaydanın 5.3.3-cü yarımbəndinə uyğun olaraq göstərdiyi, şəxsin bu Qaydanın 2.1-ci bəndində müəyyən edilmiş kateqoriyaya aid olması barədə məlumatlarda təhrifetmə halları məhkəmə tərəfindən müəyyən olunduqda;

6.5.2. seçdiyi mənzili ipoteka krediti hesabına əldə etmək niyyətində olan ərizəçi mənzilin əldə edilməsi (alqı-satqısı) anına bu Qaydanın 2.1-ci bəndi ilə müəyyən edilmiş şəxslər kateqoriyasına artıq aid olmadıqda və ərizəçi mənzili öz vəsaiti hesabına əldə etmək niyyətini mənzil seçimi zamanı və ya ipoteka kreditinin verilməsindən imtina edilməsi barədə qərar ərizəçinin elektron kabinetində yerləşdirildiyi gündən 3 (üç) iş günü müddətində sistem vasitəsilə bildirmədikdə;

6.5.3. ərizəçinin ipoteka kreditindən istifadə etməklə mənzil almaq üçün ərizəsi agent bank tərəfindən ipoteka kreditinin verilməsi Qaydasına əsasən təmin edilmədikdə və ərizəçi mənzili öz vəsaiti hesabına əldə etmək niyyətini mənzil seçimi zamanı və ya ipoteka kreditinin verilməsindən imtina edilməsi barədə qərar ərizəçinin elektron kabinetində yerləşdirildiyi gündən 3 (üç) iş günü müddətində sistem vasitəsilə bildirmədikdə.

## 7. Mənzillərin güzəştlə satışının rəsmiləşdirilməsi

7.1. Tikinti mərhələsində binada mənzillərin satışa çıxarılması məqsədi ilə cəmiyyət mənzillər üzərində mülkiyyət hüquqlarının daşınmaz əmlakın dövlət reyestrində qabaqcadan qeydiyyata alınması üçün tədbir görməlidir.

7.2. Azərbaycan Respublikasının Mülki Məcəlləsinə və "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq üzərində hüquqlar qabaqcadan qeydiyyata alınmış mənzillərin alqı-satqısı haqqında müqavilə notariat qaydasında təsdiq edilir və əldə edənin hüquqları daşınmaz əmlakın dövlət reyestrində qabaqcadan qeydiyyata alınır.

7.3. İpoteka krediti hesabına mənzil satıldığı halda cəmiyyət, ərizəçi və agent bank arasında mənzilin alqı-satqısı və ipotekası müqaviləsi bağlanılır. Bu müqavilənin nümunəvi formasını Agentliklə razılaşdırmaqla, "AİF" ASC müəyyən etməlidir.

7.4. Cəmiyyət mənzil üzərində mülkiyyət və ipoteka hüququnun qanunla müəyyən edilmiş qaydada daşınmaz əmlakın dövlət reyestrində qabaqcadan qeydiyyata alınması üçün müvafiq sənədləri alıcıya və tələb olunduğu hallarda agent banka təqdim etməlidir.

7.5. Bu Qaydanın 7.1-ci və 7.2-ci bəndlərinin müddəaları mənzili ərizəçinin öz vəsaiti, habelə kredit təşkilatından cəlb etdiyi kredit hesabına aldığı hallara da şamil edilir.

7.6. Tikinti mərhələsində mənzillərin alqı-satqısı müqaviləsinin formasını və məzmununu Agentlik müəyyən etməlidir.

## 8. Mənzillərin ipoteka krediti vasitəsilə əldə edilməsi

8.1. Mənzillərin ipoteka kreditləri ilə alınması üçün cəmiyyət agent bankla maliyyələşdirmənin təmin edilməsi barədə müqavilə bağlamalıdır.

8.2. Müqavilədə binanın tikintisinin gedişi barədə agent bankın məlumatlandırılması və tikinti mərhələsində cəmiyyət tərəfindən təminatların verilməsi şərtləri müəyyən edilməlidir.

8.3. Tikinti mərhələsində cəmiyyət tərəfindən banklara (kredit təşkilatlarına) təminatlar aşağıdakı formalarda verilə bilər:

8.3.1. tikinti mərhələsində ipoteka predmetinə tutma yönəldikdə, "İpoteka haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş qaydada ipoteka predmetinə tutmanın yönəldilməsi nəticəsində keçirilən hərrac baş tutmadıqda və ya hərrac qiyməti mənzilin satış qiymətindən aşağı olduqda mənzilin satın alınması;

8.3.2. binanın tikilib başa çatdırılması üzrə cəmiyyətin öhdəliklərinin təminatı kimi, borcalanın 12 (on iki) aylıq annuitet ödənişlərinə bərabər olan məbləğin binanın istismarına icazə verilənə qədər cəmiyyətin agent bankdakı depozit hesabında saxlanılması.

## 9. Binaların idarə olunmasına dair təkliflər

9.1. Azərbaycan Respublikasının Mənzil Məcəlləsinə uyğun olaraq, cəmiyyət tərəfindən inşa edilmiş binanın ümumi əmlakının saxlanılması və təmiri xərclərini çoxmənzilli binanın sahə mülkiyyətçiləri ödəməlidirlər.

9.2. Binada mənzillərin azı 50 faizi özgəninkiləşdirildikdə cəmiyyət mənzil mülkiyyətçilərinə binanın cəmiyyət tərəfindən idarə edilməsini (idarəetmənin təşkilini) təklif edir və buna dair müvafiq müqaviləni təqdim edir. Müqavilə Azərbaycan Respublikasının Mənzil Məcəlləsində və bu Qaydada göstərilən tələblər nəzərə alınmaqla Agentliyin təsdiqlədiyi nümunəvi forma əsasında tərtib olunur. Mənzil mülkiyyətçiləri binanın idarəedilməsinə dair cəmiyyətin təklif etdiyi müqaviləni imzalamaqdan imtina etdikdə, Azərbaycan Respublikasının Mənzil Məcəlləsində müəyyən edilmiş qaydada binanı idarəetmə formasını seçməlidirlər.

9.3. Mənzilin əldə edilməsinə dair alqı-satqı müqaviləsi notariat qaydasında təsdiqləndikdən sonra mənzili əldə edən şəxsin bu Qaydanın 5.3.3-cü yarımbəndinə uyğun olaraq göstərdiyi, bu Qaydanın 2.1-ci bəndində müəyyən edilmiş şəxslər kateqoriyasına aid olması barədə məlumatlarda təhrifetmə halları məhkəmə tərəfindən müəyyən olunduqda, Agentlik alqı-satqı müqaviləsinin etibarsızlığını məhkəmə qaydasında mübahisələndirir.

## 10. Keçid müddəaları

10.1. “Güzəştli mənzil” elektron sistemi fəaliyyətə başlayanadək bu Qaydanın 5.2-ci bəndində nəzərdə tutulmuş müraciətlərin qəbulu “ASAN xidmət” mərkəzləri vasitəsilə həyata keçirilir.

10.2. Bu Qaydaya əsasən mənzili güzəştlə əldə etmək hüququ olan şəxs “ASAN xidmət” mərkəzləri vasitəsilə göndərdiyi müraciətinə aşağıdakı sənədləri əlavə etməlidir:

10.2.1. müraciətedənin şəxsiyyətini təsdiq edən sənədin surəti;

10.2.2. müraciətedənin bu Qaydanın 2.1-ci bəndində qeyd olunan şəxslər kateqoriyasına aid olduğunu təsdiq edən sənədin (sənədlərin) surəti.

10.3. Bu Qaydanın 10.2-ci bəndində nəzərdə tutulmuş sənədlərin surətləri notariat qaydasında təsdiq edilməlidir.

10.4. Müraciət edən şəxsdən bu Qayda ilə müəyyən edilmiş sənədlərdən başqa, digər sənədlərin tələb edilməsinə yol verilmir.

10.5. “Güzəştli mənzil” elektron sistemi fəaliyyətə başladıqdan sonra “ASAN xidmət” mərkəzləri vasitəsilə təqdim edilmiş müraciətləri *“MİDA” Məhdud Məsuliyyətli Cəmiyyəti* həmin sistemdə yerləşdirir və müraciət edən şəxslərə onlar tərəfindən bildirilmiş vasitələrin biri ilə (elektron poçt ünvanı, mobil telefon nömrəsi, poçt ünvanı) məlumat göndərilir.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 24 may 2017-ci il tarixli **1417** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 25 may 2017-ci il, № 111)**

## FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[i] 24 may 2017-ci il tarixli **1417** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 25 may 2017-ci il, № 111)** ilə 1-ci və 2-ci hissələrində "**MİDA" Məhdud Məsuliyyətli Cəmiyyətinin**" sözləri "**Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyinin**" sözləri ilə əvəz edilmişdir.

[ii] 24 may 2017-ci il tarixli **1417** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 25 may 2017-ci il, № 111)** ilə 3-cü hissəsində "**MİDA" Məhdud Məsuliyyətli Cəmiyyətinin (bundan sonra – Cəmiyyət)"** sözləri "**Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyinin (bundan sonra – Agentlik**)" sözləri ilə əvəz edilmişdir.

[iii] 24 may 2017-ci il tarixli **1417** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 25 may 2017-ci il, № 111)** ilə 4-cü hissə yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

*4. "Güzəştli mənzil" sistemi aşağıdakıları təmin etməlidir:*

*4.1. Cəmiyyətin sərəncamında olan mənzillərin güzəştlə əldə edilməsi üçün tələb olunan sənədlərin siyahısının və şərtlər barədə məlumatın mövcudluğunu;*

*4.2. Cəmiyyətin sərəncamında olan mənzilləri güzəştlə əldə etmək istəyən şəxsin elektron müraciətinin real vaxt rejimində qeydiyyata alınaraq Cəmiyyətə göndərilməsini;*

*4.3. Cəmiyyətin sərəncamında olan mənzillərin güzəştlə əldə edilməsi üçün tələb olunan və bu Fərmanın 6.2.1–6.2.4-cü yarımbəndlərində nəzərdə tutulan məlumatların alınmasını;*

*4.4. Cəmiyyətin sərəncamında olan mənzilləri güzəştlə əldə etmək məqsədi ilə müraciət etmiş şəxslərin Cəmiyyət tərəfindən vahid və ictimaiyyət üçün açıq olan qeydiyyatının aparılmasını;*

*4.5. Cəmiyyətin sərəncamında olan mənzili güzəştlə əldə etmək məqsədi ilə müraciət etmiş şəxs üçün elektron kabinetin yaradılmasını.*

[iv] 24 may 2017-ci il tarixli **1417** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 25 may 2017-ci il, № 111)** ilə 5-ci hissə yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

5. "Güzəştli mənzil" sisteminin təşkilini Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyi (bundan sonra – Agentlik), fəaliyyətinin təmin olunmasını isə Cəmiyyət həyata keçirir.

[v] 24 may 2017-ci il tarixli **1417** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 25 may 2017-ci il, № 111)** ilə 6-cı hissədə "**Rabitə**" sözü "**Nəqliyyat, Rabitə**" sözləri ilə əvəz edilmişdir.

[vi] 24 may 2017-ci il tarixli **1417** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 25 may 2017-ci il, № 111)** ilə 6.2-ci bənddə birinci halda "**Cəmiyyətin**" sözü "**Agentliyin**" sözü ilə əvəz edilmişdir və ikinci halda "**Cəmiyyətin**" sözü çıxarılmışdır.

[vii] 24 may 2017-ci il tarixli **1417** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 25 may 2017-ci il, № 111)** ilə 8-ci hissə yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

*8. Müəyyən edilsin ki, bu Fərmanın 1-ci hissəsi ilə təsdiq olunmuş Qaydaya əsasən mənzillərin əvəzləşdirilməsi halları istisna olmaqla, Cəmiyyətin, eləcə də onun törəmə və asılı təsərrüfat cəmiyyətlərinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsinə o şərtlə yol verilir ki, müvafiq müqavilədə mənzilin üç il müddətində özgəninkiləşdirilməsinə, həmin mənzilin kredit hesabına Cəmiyyətdən əldə edilməsi üçün ipoteka ilə yüklü edilməsi halları istisna olmaqla, digər öhdəliklərin təminatı məqsədi ilə ipoteka ilə yüklü edilməsinə, habelə üç il müddətində mənzilin icarəyə və ya kirayəyə verilməsinə məhdudiyyət nəzərdə tutulmuş olsun.*

[viii] 24 may 2017-ci il tarixli **1417** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 25 may 2017-ci il, № 111)** ilə "MİDA" Məhdud Məsuliyyətli Cəmiyyətinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası"nın adında **"MİDA" Məhdud Məsuliyyətli Cəmiyyətinin**" sözləri "**Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyinin**" sözləri ilə əvəz edilmişdir.

[ix] 24 may 2017-ci il tarixli **1417** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 25 may 2017-ci il, № 111)** ilə "MİDA" Məhdud Məsuliyyətli Cəmiyyətinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası"nın 1.1-ci bəndində **"MİDA" Məhdud Məsuliyyətli Cəmiyyətinin (onun törəmə və asılı təsərrüfat cəmiyyətlərinin)**" sözləri "**Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyinin (bundan sonra – Agentlik), "MİDA" Məhdud Məsuliyyətli Cəmiyyətinin, habelə vətəndaşların yaşayış sahələrinə ehtiyacının ödənilməsi məqsədi ilə Agentliklə və ya Cəmiyyətlə bağlanmış müqavilə əsasında çoxmənzilli binalar inşa edərək, üzərində mülkiyyət hüququ dövlət qeydiyyatına, o cümlədən qabaqcadan qeydiyyata alınmış mənzilləri vətəndaşlara bu Fərmanın 1-ci hissəsi ilə təsdiq olunmuş Qaydada müəyyən edilmiş şərtlərlə satmaq öhdəliyi götürmüş investorun**" sözləri ilə əvəz edilmişdir.

[x] 24 may 2017-ci il tarixli **1417** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 25 may 2017-ci il, № 111)** ilə "MİDA" Məhdud Məsuliyyətli Cəmiyyətinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası"nın 1.2.1-ci yarımbəndi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

*1.2.1. cəmiyyət – "MİDA" Məhdud Məsuliyyətli Cəmiyyəti, onun törəmə və asılı təsərrüfat cəmiyyətləri;*

[xi] 24 may 2017-ci il tarixli **1417** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 25 may 2017-ci il, № 111)** ilə "MİDA" Məhdud Məsuliyyətli Cəmiyyətinin sərəncamında olan mənzilləri

vətəndaşların güzəştlə əldə etməsi Qaydası"nın 1.2.2-ci yarımbəndindən "**cəmiyyətlə**" sözü çıxarılmışdır.

[xii] 24 may 2017-ci il tarixli **1417** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 25 may 2017-ci il, № 111)** ilə "MİDA" Məhdud Məsuliyyətli Cəmiyyətinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası"nın 1.2.3-cü yarımbəndi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~*1.2.3. bina – cəmiyyətin sərəncamına verilən torpaq sahələrində onun sifarişi əsasında inşa edilən çoxmənzilli bina;*~~

[xiii] 24 may 2017-ci il tarixli **1417** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 25 may 2017-ci il, № 111)** ilə "MİDA" Məhdud Məsuliyyətli Cəmiyyətinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası"nın 2.4-cü bəndində "**birbaşa cəmiyyətə**" sözləri "**Agentliyə, habelə mənzili əldə etdiyi cəmiyyətə**" sözləri ilə əvəz edilmişdir və "**məsələyə**" sözündən sonra "**Agentlik tərəfindən**" sözləri əlavə edilmişdir.

[xiv] 24 may 2017-ci il tarixli **1417** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 25 may 2017-ci il, № 111)** ilə "MİDA" Məhdud Məsuliyyətli Cəmiyyətinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası"nın 3.2-ci bəndində "**onun Müşahidə Şurası**" sözləri "**Agentlik (onun kollegial orqanı)**" sözləri ilə əvəz edilmişdir.

[xv] 24 may 2017-ci il tarixli **1417** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 25 may 2017-ci il, № 111)** ilə "MİDA" Məhdud Məsuliyyətli Cəmiyyətinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası"nın 4.1-ci bəndində "**cəmiyyətin**" sözü "**Agentliyin**" sözü ilə əvəz edilmişdir.

[xvi] 24 may 2017-ci il tarixli **1417** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 25 may 2017-ci il, № 111)** ilə "MİDA" Məhdud Məsuliyyətli Cəmiyyətinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası"nın 5.1-ci bəndi ləğv edilmişdir.

[xvii] 24 may 2017-ci il tarixli **1417** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 25 may 2017-ci il, № 111)** ilə "MİDA" Məhdud Məsuliyyətli Cəmiyyətinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası"nın 5.2-ci bənddə "**müraciət**" sözündən sonra "**yalnız gücləndirilmiş elektron imza sertifikatı ilə**" sözləri əlavə edilmişdir.

[xviii] 24 may 2017-ci il tarixli **1417** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 25 may 2017-ci il, № 111)** ilə "MİDA" Məhdud Məsuliyyətli Cəmiyyətinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası"nın 5.3.8-ci yarımbənddə "**Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 11 aprel tarixli 858 nömrəli Fərmanı ilə təsdiq edilmiş "MİDA" Məhdud Məsuliyyətli Cəmiyyətinin Nizamnaməsi"nin 8.2.20-ci yarımbəndinə əsasən, cəmiyyət**" sözləri "**MİDA" Məhdud Məsuliyyətli Cəmiyyəti**" sözləri ilə əvəz edilmişdir.

[xix] 24 may 2017-ci il tarixli **1417** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 25 may 2017-ci il, № 111)** ilə "MİDA" Məhdud Məsuliyyətli Cəmiyyətinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası"nın 5.5-ci bəndin üçüncü cümləsində və 10.5-ci bənddə "**cəmiyyətin**" sözü "**MİDA" Məhdud Məsuliyyətli Cəmiyyəti**" sözləri ilə əvəz edilmişdir.